www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-08 (1769) 28 aprel 2023-cü il



# Azərbaycan xalqı Ulu Öndəri sonsuz hörmət və məhəbbətlə xatırlayır

**ATU-da Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tibb tələbələri və gənc alimlərin beynəlxalq konqresi keçirilib**

səh. 4

## “Heydər Əliyev İli” çərçivəsində ağacəkmə aksiyası baş tutub

səh. 2

## ATU ilə İğdır Universiteti arasında əməkdaşlıq gücləndirilir

səh. 3

## Əməkdaşımız nüfuzlu jurnalın “Qonaq redaktoru” təyin edilib

səh. 3



## Ulu Öndər Heydər Əliyev səhiyyəyə xüsusi diqqət yetirirdi

Ümummilli liderin 100 illiyinə həsr olunmuş ATUREK-11 - rezidentlərin elmi-təcrübi konfransı keçirilib

səh. 2

## Bakıda Tibb Təhsili üzrə Beynəlxalq Konfrans olacaq

*ATU dünyanın hər yerindən tibb ekspertlərini Azərbaycana toplayır*

səh. 2

## Mübariz İbrahimov adına təhsil kompleksinin şagirdləri universitetimizə gələcək

*Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksi ilə əməkdaşlıq memorandumu imzalanıb*

səh. 3



## “Dayım mənim qəhrəmanımdır”

Şəhid gizir Fariz Şıxəliyevin davamçıları təkcə ailəsində deyil, bütün Azərbaycanda böyüyür

səh. 6

# Heydər Əliyevin 100 illiyi ilə bağlı ağacəkmə aksiyası baş tutub



**“Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Tibb Universitetinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Bakının Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.**

Aksiyada Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, ATU-nun prorektorları, dekanları, bir sıra struktur bölmə rəhbərləri və tələbələri, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi iştirak edib.

Aksiyada qeyd olunub ki, bu il ərzində ölkə ərazisində 3 milyon ağacın əkilməsi hədəf götürülüb. Bildirilib ki, bu gün əkilən hər bir ağac gələcək nəsillərə yadigar qalmaqla, həm də paytaxt Bakı şəhərində, ümumilikdə Abşeron yarımadasında ekoloji tarazlığın qorunmasında vacib rol oynayacaq.

Aksiyanın keçirilməsində əsas məqsəd Ümummilli Liderin yaşıllaşdırma ənənələrini davam etdirməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə təbiətə qayğının təbliğ etməkdir. Həmçinin ağac əkilməsini və yaşıllıqların çoxaldılmasını təşviq edərək, ətraf mühitin qorunmasına töhfə verməklə Ulu Öndərin əziz xatirəsini yad etməkdir.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən aksiya zamanı Müşfiqabad qəsəbəsində 1 hektar ərazidə Bakı şəhəri və Abşeron yarımadasının iqlim şərtlərinə uyğun 650 ağac əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, müvafiq təmizlik işləri aparılıb.

# Bakıda Tibb Təhsili üzrə Beynəlxalq Konfrans keçiriləcək

### ATU dünyanın hər yerindən tibb ekspertlərini Azərbaycana toplayır




**Bu il 7-10 oktyabr tarixlərində Azərbaycan Tibb Universitetinin ev sahibliyi ilə Bakıda növbəti böyük beynəlxalq tədbir keçiriləcək. ATU və Pakistanın Riphah Beynəlxalq Universitetinin (RBU) birgə təşkilatçılığı ilə baş tutacaq Tibb Təhsili üzrə Beynəlxalq Konfrans (International Conference on Medical Education – İCME) dünyanın bir çox ölkələrindən mütəxəssisləri bir araya gətirəcək.**

Konfransın rəsmi təqdimatına həsr olunmuş onlayn görüşdə Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli, Səhiyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Məmmədov, RBU-nun prorektoru, professor Anis Ahmad, İCME-nin prezidenti, general professor Azhar Rashid, ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və RBU-nun prorektorunun müavini, professor Yaver Hayat tədbirin önəmi ilə bağlı əsas məsələləri diqqətə çatdırıblar. Facebook üzərindən canlı yayımlanan görüşdə konfransın tibb ictimaiyyəti üçün böyük əhəmiyyət daşıdığı vurğulanıb. Təşkilatçılar “İCME-2023 Bakı” toplantısının uğurla keçəcəyindən əminliklərini bildiriblər.

Görüşdə, həmçinin ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Təsərrüfat işləri üzrə prorektor Tağı Əhmədov, İCME-nin vitse-prezidentləri - professor Rahila Yasmeen və professor Rehan Ahmed Khan iştirak ediblər.

Qeyd edək ki, nüfuzlu İCME konfransının əsas məqsədi tibb təhsili üzrə ekspertlər və pedaqoqları bir araya gətirməklə bu sahədəki son yeniliklər və standartların müzakirəsi, təcrübə mübadiləsinin aparılması və bu sahədə beynəlxalq platforma yaradılmasından ibarətdir.

Bakı konfransında Dünya Tibb Təhsili Federasiyasının (World Federation for Medical Education -WFME) prezidenti Ricardo Leon-Borquez, ECFMG-nin prezidenti, Queensland Universitetinin fəxri professoru Uilyam Pinsky, “Ras Al Khaimah” Tibb və Səhiyyə Elmləri Universitetinin (RAKMHSU) prezidenti İsmail İbrahim Matalka və tibb təhsili üzrə digər dünya miqyaslı qurumların nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Xatırladaq ki, tibb təhsili üzrə ilk beynəlxalq konfrans 2009-cu ildə İslamabadda baş tutub. İki ildən bir təşkil olunan tədbir sonradan Birləşmiş Ərəb Əmirlikləri, Mavritaniya, Türkiyə və İndoneziyada keçirilib.

Məlumat üçün deyək ki, bir müddət öncə növbəti İCME konfransının Bakıda keçirilməsinə qərar verildikdən dərhal sonra tədbirin təşkili üzrə işlərə başlanılıb. Son bir neçə ay ərzində hər iki universitetin nümayəndə heyətləri tərəfindən məsələ ilə bağlı mütəmadi müzakirələr aparılıb, işlər planı dəqiqləşdirilib.

**Aprelin 25-də Azərbaycan Tibb Universitetində Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ATUREK-11 - rezidentlərin elmi-təcrübi konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu öndərin universitetin foyesindəki büstünün önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər. Bundan sonra Ulu öndərin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğı, eləcə də onun mənalı ömrünün müxtəlif məqamlarından bəhs edən video-çarx nümayiş olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

# Ulu Öndər Heydər Əliyev səhiyyəyə xüsusi diqqət yetirirdi

### Ümummilli liderin 100 illiyinə həsr olunmuş ATUREK-11 - rezidentlərin elmi-təcrübi konfransı keçirilib

İştirakçıları salamlayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli ənənəvi olaraq hər il keçirilən ATUREK-in 11-ci konfransının xalqımızın Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğunu bir daha vurğulayıb: “Ulu öndər bütün siyasi fəaliyyəti boyunca hər bir sahə kimi, səhiyyəyə də xüsusi diqqət yetirib və onun təşəbbüsü ilə bir çox tibb müəssisələri istifadəyə verilib. Məhz həmin dövrdə milli həkim kadrlarının dünyanın inkişaf etmiş ölkələrinin nüfuzlu tibb müəssisələrində təhsil almalarına şərait yaradılıb. Səhiyyənin inkişafı üçün





tibb təhsilinin keyfiyyətli olmasını nəzərə alan Ümummilli lider bu məsələyə böyük diqqət yetirib və məhz onun diqqət və qayğısı nəticəsində ATU-da yeni tədris binaları istifadəyə verilib, universitet klinikaları yaradılıb. Ulu öndərin gənclər siyasətini layiqincə davam etdirən cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə gənclərin hərtərəfli inkişaf etdirilməsi, onların rifahının yüksəldilməsi üçün bir sıra təşkilatlar formalaşdırılıb. Bu siyasət tibb təhsilində də yeni imkanların yaradılması və bu sahədə köklü islahatların aparılması ilə özünü göstərir”.

Rektor qeyd edib ki, bu islahatlardan biri də illər öncə tibb təhsilində rezidentura pilləsinin təsis edilməsi oldu: “Azərbaycanda yüksəkixtisaslı tibbi kadr hazırlığında müstəsna əhəmiyyət daşıyan rezidentura təhsilinə 2011-ci ildən başlanılıb. 2013-cü ildən isə Azərbaycan Tibb Universiteti rezidentura üzrə ilk məzunların həkimlik fəaliyyətinə vəsiqə verib. Rezidentura təhsil pilləsinin yaradılması tələbələrin müstəqil praktikaya daha yetkin tibb mütəxəssisləri kimi başlaması və seçdikləri ixtisası daha dərindən, elmi-tədqiqat səviyyəsində öyrənməsinə şərait yaradır. Bu addım həm də ölkəmizin dünya tibb təhsili sisteminə və eləcə də müasir səhiyyə modelinə uyğun formalaşması deməkdir”.

Səhiyyə Nazirliyinin nümayəndəsi Təranə Əhmədova çıxışında bu cür tədbirlərin rezidentlərin həyatındakı əhəmiyyətini qeyd edərək vurğulayıb ki, belə elmi-təcrübi konfranslar onların elmi potensialının üzə çıxmasına şərait yaradır və elmi müzakirələr aparmaq bacarıqlarını inkişaf etdirir: “Bu konfrans rezidentlərimizin marağını çəkməkdə bundan sonra da davam edəcək və aparılan elmi işlərin, təqdimatların, faydalı müzakirələrin şahidi olacağıq. Azərbaycan Tibb Universiteti təkcə ölkəmizin səhiyyəsi üçün ali təhsilli kadrlar hazırlamır, həm də dünya səviyyəli, təbabət elminin yeniliklərindən xəbərdar olan, yüksək ixtisaslı tibb mütəxəssisləri yetişdirir”.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov çıxışında dahi şəxsiyyət və uzaqgörən siyasətçi Heydər Əliyevin həyat və fəaliyyəti, onun rəhbərliyi dövründə respublikamızın keçdiyi inkişaf yolundan bəhs edib. O, səhiyyə sahəsinə, eləcə də tibbi kadrlara göstərilən diqqət və qayğı, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə vətəndaş cəmiyyəti, qanunun aliliyini təmin edən hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi, davamlı aparılan sosial islahatlar, ölkəmizin hər yerində gedən genişmiqyaslı quruculuq işlərindən danışıb. N.Qasımov, həmçinin rəhbərlik etdiyi müəssisədəki yeniliklərdən, ATU ilə əməkdaşlıqdan və rezidentura pilləsinin uğurlu tətbiqindən söhbət açıb. Natiq onlarla rezidentin xarici ölkələrin nüfuzlu tibb müəssisələrində rotasiya keçdiyini, müxtəlif konfrans və seminarlarda fəal iştirak etdiyini qeyd edib. Rektor bu konfransda ADHTİ-nin də bir neçə rezidentinin müxtəlif mövzularda məruzə ilə çıxış edəcəyini söyləyib.

ATU-nun Hərbi tibb fakültəsinin tədris şöbəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev Azərbaycan tarixinin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsini yada salaraq, həmin dövrdə fakültənin üzərinə böyük yük düşdüyünü, məzunlarımızın müharibə vaxtı öz vəzifələrini layiqincə yerinə yetirdiklərini vurğulayıb: “Qürurluyuq ki, bu qəhrəmanlar ordusunun böyük bir qismini ATU-nun məzunları, rezidentləri təşkil edirdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında rəşadətli ordumuzun şanlı zəfər qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi Tibb Universiteti üçün daha bir sınaq oldu. Əməkdaşlarımız Vətən müharibəsində və eləcə də ondan sonra yüzlərlə qəhrəman döyüşçümüzü həyata qaytardı və bu gün onların normal yaşamasını təmin etdi. Həkim və rezidentlərimiz göstərdikləri igidliyə görə bir sıra orden və medallara layiq görülüb, qazilərimiz isə dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub”.

Konfransda Anesteziologiya-reanimatologiya ixtisası üzrə təhsil alan Antiqua və Barbudadan olan əcnəbi rezident Drickesha Aska ATU-da onların təhsil alması üçün hər cür şərait yaradıldığını və ölkəmizin insanlarının qonaqpərvərliyini Azərbaycan dilində ifadə edib.

ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova da Azərbaycan gəncliyinə, o cümlədən rezidentlərə güvəndiyini və onlara böyük ümidlər bəslədiyini bildirib: “Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu gün təşkil olunmuş konfransda təkcə Tibb Universitetinin deyil, ölkəmizin bütün bazalarının rezidentləri iştirak edir. Onlar elmi məqalələri, maraqlı məruzələri ilə bugünkü konfransda təmsil olunurlar. Qürurla deməliyəm ki, 370-dən çox rezident qeydiyyatdan keçib və 90 elmi məqalə dərc olunub. Onlar konfransda 4 panel ixtisası - cərrahiyyə, terapiya, ginekologiya və magistratura üzrə tibbin müxtəlif sahələrini əhatə edən bilikləri paylaşacaq, müzakirələr aparacaqlar”.

Rəsmi hissədən sonra konfrans panel iclaslarla öz işini davam etdirib. Rezidentlər müxtəlif məzmunlu məruzələr və posterlərlə çıxış ediblər. Tədbirin sonunda məruzələr münsiflər tərəfindən dəyərləndirilib və qalib rezidentlərə mükafatlar təqdim olunub.

**M.ƏLƏKBƏRLİ**

# ATU ilə İğdır Universiteti arasında əməkdaşlıq gücləndirilir

**Azərbaycan Tibb Universiteti ilə Türkiyənin İğdır Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli və İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Almanın iştirakı ilə keçirilən görüşdə iki ali məktəbin elmi və təcrübi biliklər mübadiləsi aparması, peşəkar tibb kadrlarının hazırlanması baxımından bu əməkdaşlığın çox önəmli olduğu vurğulanıb. Rektorlar Azərbaycan və Türkiyə arasında bütün sahələrdə, o cümlədən tibb sahəsində qarşılıqlı faydalı əlaqələrin mövcudluğundan məmnunluqlarını bildirərək, qardaş münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyini qeyd ediblər. Onlar əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına inandıqlarını bildiriblər.

Əsas məqsədi akademik mübadilə və əməkdaşlığın genişləndirilməsindən ibarət olan Memorandum iki universitet arasında Tibb bacısı ixtisası üzrə tələbə-müəllim mübadiləsi, birgə layihələrin icrası, ikili diplom məsələsində əməkdaşlıq və digər önəmli məqamları nəzərdə tutur.

Görüşdə, həmçinin ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, İctimai səhiyyə fakültəsinin dekanı, akademik Ramazan Erenler iştirak ediblər.

Qeyd edək ki, İğdır Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetində keçirilən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş beynəlxalq konqresdə iştirak üçün Bakıya səfər ediblər.

# Mübariz İbrahimov adına təhsil kompleksinin şagirdləri ATU ilə tanış olacaqlar

## Universitetlə Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksi arasında əməkdaşlıq memorandumu imzalanıb



**Azərbaycan Tibb Universiteti ilə Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksi arasında əməkdaşlıq memorandumu imzalanıb.**

İmzalanma mərasimi zamanı Biləsuvar Təhsil kompleksinin icraçı direktoru Aqşin Bağırov çıxış edərək, kompleksin yaranma tarixi və fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, 18 oktyabr 2010-cu ildən fəaliyyət göstərən bu kompleksin əsas hədəfi şagirdlərin şəxsiyyəti və yaradıcı potensialını inkişaf etdirmək, müstəqil həyata hazır intellektuallar yetişdirmək, milli və bəşəri dəyərləri, liderlik keyfiyyətlərini onlara təlqin etməkdən ibarətdir.

A.Bağırov bildirib ki, Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksi Dövlət İmtahan Mərkəzinin rəsmi statistik təhlillərində son 5 il ərzində ali məktəblərə qəbul göstəricisinə görə ölkə üzrə ardıcıl olaraq birinci yeri tutur: “Yüksək bal toplayan məzunlarımız arasında ATU-nu seçənlər çoxdur. Şagirdlərimiz tibb təhsili ilə çox maraqlandıqlarına görə, əməkdaşlıq qurmaq və məktəblilərimizin ATU-dakı ixtisaslar barədə məlumatlandırılmasını arzulayırıq”.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksi ilə faydalı əməkdaşlığın olacağından əminliyini bildirib. Rektor son illər ATU-da aparılan islahatlar, tədris prosesindəki yeniliklər, yeni ixtisasların açılması haqqında məlumatı görüş iştirakçılarının diqqətinə çatdırıb: “Kompleksin şagirdlərini ATU-dakı təhsil prosesi, qurulan tədris sistemi ilə tanış etməyə çox şad olarıq. Şagirdləri universitetimizin Anatomiya Muzeyi, treninq mərkəzləri və s. ilə yanaşı, həm də tələbələrin sosial həyatı ilə də tanış edəcəyik. Çünki müasir dövrdə tələbələrin peşəkar kadr kimi yetişməsi ilə yanaşı, həm də ictimai baxımdan aktiv olmasına böyük ehtiyac var”.

Professor G.Gəraybəyli Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin rəhbərliyini Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı ATU-da təşkil olunacaq tədbirə dəvət edib.

Sonra çıxış edən ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev qonaqlara universitetin Hərbi tibb fakültəsi haqqında məlumat verib. Milli Qəhrəman M.İbrahimovun adını daşıyan liseyin şagirdlərində bu fakültəyə daha çox maraq olduğu da vurğulanıb.

Görüşün sonunda tərəflər arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Görüşdə kompleksin icraçı direktorunun assistenti Ülvi Həzizadə, ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva, Stomatologiya fakültəsinin dekanı Səid Əhmədov, Kimya kafedrasının müdiri Rəvan Məmmədov, Biologiya kafedrasının müdiri Vəfa Xankişiyeva, kimya müəllimi Vüsalə Pənahova, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak edirdilər.

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) BMT-nin Uşaq Fondu (UNICEF) ilə birlikdə Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi “Vaksinasiyaya dəstək” layihəsi çərçivəsində Azərbaycanda keçirilən Avropa İmmunlaşdırma Həftəsi ilə bağlı silsilə tədbirlərə start verib.**

# “İmmunlaşdırma Həftəsi” çərçivəsində geniş kampaniya aparılıb

Xatırladaq ki, Azərbaycanın səhiyyə naziri Teymur Musayev 24–29 aprel tarixlərində respublikanın bütün şəhər və rayonlarında “İmmunlaşdırma Həftəsi” keçirilməsi ilə bağlı əmr imzalayıb. Həmin əmrə uyğun olaraq, ÜST-ün texniki dəstəyi ilə ötən ilin göstəricilərinə görə peyvəndlərlə əhatə səviyyəsi xüsusilə aşağı olan 11 rayonda monitorinqlər keçirilib. Eyni zamanda, həmin rayonların 4-də - Göygöl, Mingəçevir, Yevlax və Qobustanda ÜST və UNICEF Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə “Peyvəndin vaxtını gecikdirmə! Hər doza vacibdir!” şüarı altında valideyn konfransları təşkil edib. Həmin valideyn konfranslarında Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-pediatr valideynlərə peyvəndləmə ilə bağlı dolğun məlumat çatdırıb və onları maraqlandıran sualları cavablandırıb. Bununla yanaşı, həmin rayonlarda fəaliyyət göstərən pediatr və vaksinatorlar üçün peyvəndləmə sahəsində son tibbi yeniliklərlə bağlı təlimlər keçirilib.

Kampaniya müddəti boyunca əhaliyə ÜST tərəfindən hazırlanmış rutin immunlaşdırma ilə bağlı maarifləndirici materiallar, o cümlədən rutin peyvəndlərə bağlı miflər haqqında sual-cavab şəklində hazırlanmış broşür və peyvəndlə qarşısı alına bilən xəstəliklər haqqında yenilənmiş kitabça təqdim edilib. Həmçinin bu il Avropa regionunda qızılca və məxmərək infeksiyasına yoluxma hallarının artması nəzərə alınaraq, həmin infeksiyalar haqqında məlumatların əks olunduğu posterlər əhali arasında paylanılıb.

Kampaniya çərçivəsində peyvəndləmədən kənarda qalan uşaqların peyvənd olunmağa dəvət edilməsi istiqamətində fəaliyyət aparılacaq.

Layihə Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

**Azərbaycan Tibb Universiteti dünya ali məktəbləri ilə əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir. ATU-nun rəsmiləri ilə Çinin Daxili Monqolustan Tibb Universitetinin nümayəndə heyəti arasında onlayn görüş keçirilib.**

# Çin universiteti ilə əməkdaşlıq istiqamətləri müzakirə olunub



Görüşdə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov ali məktəbin tarixi, fəaliyyəti, tədris olunan ixtisaslar və s. zəruri bilgilərlə qonaqları tanış edib. Professor R.Bəylərov, həmçinin ATU-da son illərdə aparılan islahatlar, təhsil səviyyəsi, əcnəbi tələbələrin təhsil şərtləri kimi məlumatları da paylaşıb.

Daxili Monqolustan Tibb Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Liu Bin rəhbərlik etdiyi təhsil müəssisəsi barədə məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıb. Prorektor L.Bin hazırda 9 minə yaxın tələbəsi olan bu universitetin dünyanın bir çox universitetləri ilə əlaqələr qurduğunu, bundan sonra ATU ilə də əməkdaşlığa başlanılacağına ümid etdiklərini bildirib.

Daha sonra universitetlər arasında əməkdaşlıq istiqamətləri, birgə layihələrin perspektivləri barədə fikir mübadiləsi aparılıb. Ortaq elmi araşdırmaların icrası sahəsində təcrübə mübadiləsinin gücləndirilməsi istiqamətində də müəyyən addımların atılmasının zəruriliyi vurğulanıb. Həmçinin tədris və elmi-tədqiqat istiqamətlərində qarşılıqlı fəaliyyətin təşkilinin perspektivləri müzakirə olunub.

Geniş tərkibdə baş tutan onlayn görüşdə hər iki universitetin bir sıra fakültələrinin dekanları və şöbə müdirləri iştirak ediblər.

# Əməkdaşımız nüfuzlu jurnalın “Qonaq redaktoru” təyin edilib

**Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov İstanbul Universiteti nəzdində nəşr olunan “Experimed” jurnalının “Qonaq redaktoru” təyin edilib.**


EXPERIMED
e-ISSN 2667-5846
İSTANBUL UNIVERSITY PRESS

*Dear Dr. Mushvig Hasanli,*
*Azerbaijan Medical University*

*On behalf of the Editorial Board Team of EXPERIMED, an open access scientific publication of Istanbul University Aziz Sancar Institute of Experimental Medicine, I am honored to announce that you are appointed as the Guest Editor for our next issue that will be published in December 2023.*

*We are very excited for the contributions that we will labor together for science.*

*Prof. Dr. Bedia Çakmakoğlu*
*Editor-in-Chief*

Bu barədə İstanbul Universitetinin professoru Bedia Çakmak məlumat verib. “Hörmətli doktor Müşfiq Həsənli, İstanbul Universiteti Əziz Sancar Eksperimental Tibb İnstitutunun açıq çıxışlı elmi nəşri olan “Experimed” jurnalının redaksiya heyəti adından 2023-cü ilin dekabrında nəşr olunacaq növbəti sayımızın “Qonaq redaktoru” təyin olunduğunuzu bildirməkdən şərəf duyuram. Elm üçün birlikdə çalışacağımız töhfələrə görə çox həyəcanlıyıq” – deyə o bildirib.

# Qazaxıstanlı tələbələrin təcrübə proqramı başa çatıb

**Azərbaycan Tibb Universiteti və Qazaxıstanın Astana Tibb Universiteti arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində 5 qazaxıstanlı tələbə - İctimai səhiyyə ixtisası üzrə 4-cü kursda təhsil alan Aycan Zeynoldina, Ayım Kubriyanova, Aliya Bissaqaliyeva, Zülfiyyə Jetpisbayeva və Fariza Paraxatova ATU-nun İctimai səhiyyə fakültəsinin Qidalanma və tibbi ekologiya, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedralarında “Mütəxəssis-gigiyenist” ixtisası üzrə 19 günlük təcrübə keçib.**



Astana Tibb Universitetinin tələbələri təqvim-mövzu planına uyğun olaraq müəllimlər - professor Rafiq Çobanov, dosentlər Qalina Qəniyeva, Şəhla Balayeva, Nigar Süleymanzadə, Sədaqət Həsənova, Cəmilə Salihova, Məhərrəm Məhərrəmov, Yaqut Hacıyeva, Fərəh Baxşılı və assistent Avaxanım Vəlibəyovanın mühazirə və praktik məşğələ dərslərində iştirak edib. Tədris prosesi zamanı tələbələr kafedraların strukturu, tədris olunan fənlər, ölkəmizdə dövlət tərəfindən epidemioloji nəzarətin aparılması, əhalinin sanitar-epidemioloji sağlamlığı sahəsində normativ-hüquqi aktlara riayət olunmasına nəzarətin həyata keçirilməsi qaydaları ilə tanış ediliblər. Həmçinin onlar 80 saylı bağça və 132-134 saylı təhsil kompleksini müayinə edib, Bakı Tikiş Evində əmək şəraiti, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin kompleks müayinəsi ilə tanış olublar.

Təcrübənin sonunda qonaq tələbələr ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva tərəfindən qəbul edilib və müvafiq sertifikatlarla təltif olunublar.

# Azərbaycan xalqı Ulu Öndəri sonsuz hörmət və məhəbbətlə xatırlayır

## ATU-da Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tibb tələbələri və gənc alimlərin beynəlxalq konqresi keçirilib

**Aprelin 13-14-də Azərbaycan Tibb Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Azərbaycan tibb tələbələri və gənc alimlərinin beynəlxalq konqresi keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin büstü önünə gül dəstələri qoyublar. Bundan sonra dövlət himnimizin səsləndirilməsi ilə öz işinə başlayan beynəlxalq konqresdə universitetin rektoru, professor Gəray Gəraybəyli açılış nitqi ilə çıxış edib.**




İlk növbədə tədbirə qatılan qonaqları, professor-müəllim heyətini və tələbələri salamlayan rektor, 2023-cü ilin "Heydər Əliyev İli" elan edildiyini və tariximizdə silinməz iz qoyan, Azərbaycanın ən parlaq və tanınmış siması olan dahi şəxsiyyət, uzaqgörən siyasi liderin 100-cü ildönümünün bütün ölkə üzrə qeyd olunduğunu bildirib.

O, Ümummilli lider Heydər Əliyevin öz həyatını doğma xalqına həsr etdiyini, bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət göstərdiyini diqqətə çatdırıb: "Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda məhz Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində respublikamızda həkim kadrlarının və tibb alimlərinin hazırlığı yüksək vüsət aldı, mövcud səhiyyə ocaqları abadlaşdırıldı, yeni tibb müəssisələri, yeni elmi mərkəzlər açıldı, elmi-tədqiqat institutlarının fəaliyyəti xeyli canlandı. Fərəhli haldır ki, Ulu Öndər iki dəfə - 1998 və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində oldu. O hər gəlişində geniş nitq söyləyərək həm tələbələrə, həm professor-müəllim heyətinə, həm də bütövlükdə bütün səhiyyə işçilərinə dəyərli tövsiyələrini verdi. 2002-ci ildə isə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Tibb Universitetinin klinikası olan Stomatoloji Klinikanın yaradılması haqqında qərar qəbul edildi. Eləcə də məhz Ümummilli liderin göstərişi ilə universitetimizdə Hərbi tibb fakültəsi yaradıldı".

Ulu Öndərin səhiyyə sahəsində başladığı islahatları bu gün ölkə başçısı İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayan rektor, son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində böyük işlər görüldüyünü, geniş islahatlar aparıldığını bildirib: "Tibb müəssisələrinin maddi-texniki bazası ciddi dərəcədə möhkəmləndirilib. Təkcə bu faktı demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir olunub. Azərbaycan xalqı Ulu Öndərimizi sonsuz hörmət və məhəbbətlə xatırlayır. Bu günkü beynəlxalq konqres də Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə tibb ictimaiyyətinin, elm adamlarının və tələbələrimizin sonsuz ehtiramının bariz nümunəsidir".

Professor G.Gəraybəyli konqresdə qardaş Türkiyədən, Özbəkistan və Qazaxıstan respublikalarından, Dağıstan Muxtar Respublikasından tanınmış mütəxəssislərin, tələbə və gənc alimlərin iştirak etdiyini diqqətə çatdırıb: "Hər zaman bizim tədbirlərdə aktiv şəkildə iştirak edən Türkiyənin Pelvik Ağrı və Endometrioz Dərnəyinin başqanı, professor Erkut Attar və onun rəhbərliyi ilə 6 nəfərlik nümayəndə heyəti də bu gün bizimlədir. Tədbirimizdə, həmçinin Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərliyi ilə professor-müəllim və tələbə heyəti, eləcə də Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin başçılığı ilə 30 nəfərə yaxın professor-müəllim və tələbələrdən ibarət geniş nümayəndə heyəti iştirak edir. Eyni zamanda İ.M.Seçenov adına Birinci Moskva Tibb Universitetinin Bakı filialının nümayəndə heyəti də konqresimizə qatılıb. Konqresin proqramına nəzər saldıqda görürük ki, tələbələrimiz və gənc alimlərimiz günümüzün ən aktual mövzularına müraciət ediblər".



Çıxışının sonunda maraqlı müzakirələrin aparılacağına və nəticələrin həm tələbələr, həm də gənc alimlər ucun çox faydalı olacağına əminliyini ifadə edən rektor, konqresin işinə uğurlar arzulayıb.

Bakı Dövlət Universitetinin rektoru, dosent Elçin Babayev 1919-cu ildə fəaliyyətə başlayan BDU-nun cəmi iki fakültəsindən birinin Tibb fakültəsi olduğunu xatırladıb. O, Bakı Dövlət Universiteti ailəsi adından konqres iştirakçılarını təbrik edərək bildirib ki, Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı, görkəmli siyasi xadim Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətimizin tarixində misilsiz yeri və rolu var: "Şərəflə yaşadığı ömrünün təxminən 35 ilini Azərbaycana rəhbərlik edən, müstəqil Azərbaycanın qurucusu olan, əbədiyaşarlıq rəmzinə çevrilən Ulu Öndər elmin, təhsilin, iqtisadiyyatın, eləcə də səhiyyənin, tibb elminin dinamik inkişafının tənzimləyicisi kimi yaddaşlara həkk olunub. Heydər Əliyev hər zaman tibb işçilərinə böyük qayğı göstərib və çıxışlarında həkimlik peşəsinin öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir iş olduğunu vurğulayıb. Bu gün Ulu Öndərin əsasını qoyduğu elm və təhsil siyasəti, zəngin maarifçilik ideyaları Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən böyük əzm və uğurla həyata keçirilir".

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışı zamanı Ulu Öndərin müxtəlif vaxtlarda dörd dəfə Naxçıvan Dövlət Universitetində olduğunu xatırladaraq, ali təhsil ocağının inkişafını daim diqqətdə saxladığını vurğulayıb. Qeyd edib ki, Heydər Əliyev NDU-nun yaradılmasının, inkişafının, bugünkü səviyyəyə çatmasının birbaşa memarıdır. O, Heydər Əliyevin 100 illik yubileyinin təkcə ölkə daxilində deyil, respublikamızın hüdudlarından kənarda da böyük coşğu ilə qeyd olunduğunu söyləyib. Bu nöqteyi-nəzərdən beynəlxalq səviyyəli tibb konqresinin əhəmiyyətindən söz açan E.İsayev, eyni zamanda Azərbaycan Tibb Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əlaqələrin genişlənməsindən məmnunluğunu dilə gətirib.

Türkiyə İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma, Türkiyə Pelvik Ağrı və Endometrioz Dərnəyinin rəhbəri, professor Erkut Attar və Özbəkistan Səhiyyə Nazirliyinin nümayəndəsi, professor Nematjon Ergashev də çıxış edərək, bu mötəbər konqresdə iştirak etməkdən məmnunluqlarını çatdırıb, burada aparılan təcrübə mübadiləsinin bütün iştirakçılar üçün faydalı olacağını söyləyiblər.

Açılış mərasimindən sonra konqres iş planına uyğun olaraq, 2 gün ərzində nəzəri təbabət, cərrahiyyə, ginekologiya, stomatologiya, terapiya, humanitar ictimai və digər bölmələr üzrə işini davam etdirib. Sessiyalarda həm azərbaycanlı, həm də xarici mütəxəssislərin məruzələri dinlənilib.

Bağlanış mərasimində çıxış edən ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov belə tədbirlərin dünyanın müxtəlif universitetlərində təhsil alan tibb tələbələrinin və ayrı-ayrı klinikalarda çalışan həkimlərin bir araya gəlməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, bu konqres tanınmış mütəxəssislərin fikir mübadiləsi aparması, eləcə də öz biliklərini bölüşməsi, ölkəmizin gənc həkim və tələbələri ilə tanış olmasına da imkan yaradıb: "Çox maraqlı diskussiyalarla yadda qalan konqresin ilkin nəticəsi həm praktik həkimlər, həm gənc alimlər, həm də tələbələr üçün faydalı oldu".

Bağlanış mərasimində fakültə dekanları və təşkilat komitəsinin iştirakı ilə tədbirə qatılan professor-müəllim heyətinə və tələbələrə universitetin rektoru, professor Gəray Gəraybəylinin adından xüsusi hədiyyələr və sertifikatlar təqdim olunub.

**Arif MƏMMƏDLİ**



**ATU-da xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib.**

# Ümummilli liderin ideyaları daim yaşayacaq

## "Heydər Əliyev İli" çərçivəsində YAP-ın ATU ərazi təşkilatının yubiley tədbiri keçirilib

Tədbiri açan YAP-ın Nəsimi rayonu üzrə ATU ərazi təşkilatının sədri, universitetin Müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev Ulu Öndərin şərəfli ömür yolundan bəhs edərək bildirib ki, bu gün tariximizdə onun silinməz izi var: "Onun qoyduğu izlər bu gün də aktualdır. Azərbaycan tarixinə Ulu Öndərin ilk gəlişi 1969-cu ildə baş verib və demək olar ki, bütün sahələr üzrə geridə qalmış bir aqrar ölkəni inkişaf etmiş sənaye respublikasına çevirib. Heydər Əliyevin 1993-cü ildə Azərbaycan hakimiyyətinə ikinci dəfə gəlişi zamanı isə ölkədə ağır şərait hökm sürürdü. Həmin zamanlar Ümummilli liderimiz ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət konsepsiyasını uğurla həyata keçirmişdir. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni, müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq onun yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək üçün möhtərəm prezidentimizin ətrafında sıx birləşərək əlimizdən gələni əsirgəməməliyik. Biz dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifəmizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq".

Sözünə davam edən natiq dövlətçiliyimizin qorunub saxlanması istiqamətində Heydər Əliyevin göstərdiyi gərgin siyasi fəaliyyətdən söhbət açıb: "Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğal olunması, bir milyon soydaşımızın qaçqın düşməsi Ulu Öndəri ən çox narahat edən məsələ idi və o hələ 25-30 il öncə deyirdi ki, biz mütləq Qarabağı geri qaytaracağıq. Onun bu arzusunu Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyev 44 günlük II Qarabağ müharibəsi ilə reallaşdırdı. İllər ötəcək, lakin Heydər Əliyevin dahi siyasətçi kimi əziz xatirəsi daim könüllərimizdə yaşayacaq".

Tədbirdə Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın düşməndən azad edilməsi zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən videoçarx nümayiş olunub.

ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev Ulu Öndərin nəsillərə örnək olan həyat yolu, Azərbaycan dövlətinin möhkəmləndirilməsi və dünyada öz layiqli yerini tutması istiqamətində göstərdiyi siyasi fəaliyyət barədə geniş məruzə edib. O, Ulu Öndərin Azərbaycanın tarixinə, mədəniyyətinə, elm və təhsilinə, eləcə də digər sahələrə verdiyi yüksək qiyməti vurğulayıb: "Ulu Öndər çiyinlərinə bir xilaskarlıq missiyası götürdü. Azərbaycanın müstəqillik qazanması nə qədər çətin idisə, onu qoruyub saxlamaq ondan da çətin idi. Ümummilli lider öz siyasi dünyagörüşü, zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail oldu. Ümummilli liderimizin dövlətçilik siyasəti sayəsində Azərbaycanın özü ilə birlikdə səhiyyə sistemi də xilas edildi. Bundan sonra müstəqil Azərbaycanda siyasi-iqtisadi, elmi-mədəni sahələr və eləcə də hərbi quruculuq yüksələn xətt üzrə irəliləməyə başladı".

Məruzəçi Heydər Əliyev şəxsiyyətindən və onun ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanmasındakı xidmətlərindən danışıb: "Ümummilli liderimiz ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət konsepsiyasını uğurla həyata keçirmiş, bu siyasi kurs bütün istiqamətlərdə dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına xidmət etmişdir".

YAP-ın Nəsimi rayonu üzrə Ağsaqqallar Şurasının sədri, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru, ə.e.x. Vaqif Şadlinski Heydər Əliyev şəxsiyyətindən və onun dünya liderləri arasındakı nüfuzundan söhbət açıb. O, çıxışında Ulu Öndərin gənclərlə keçirdiyi müxtəlif görüşləri və tədbirləri daim xatırladığını, gənclərin əsl vətəndaş kimi yetişməsi üçün həmişə lazımi şərait yaratdığını, həmçinin onun özünün də Ulu Öndərlə 4 dəfə görüşdüyünü vurğulayıb. Heydər Əliyevin bütün sahələrə olduğu kimi, təhsilin inkişafına da böyük önəm verdiyini deyib: "Ulu Öndərin ölkəmizin inkişafına işıq salan ideyaları daim yaşayacaq".

YAP-ın Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov söyləyib ki, müstəqillik qazandığımız 1991-ci il oktyabrın 18-dən Ulu Öndərin hakimiyyətə gəldiyi 1993-cü ilin iyununadək Azərbaycanda xaos hökm sürürdü. Hətta ölkədə parçalanma təhlükəsi yaranmışdı. Belə bir çətin anda xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev rəhbərliyi öz üzərinə götürdü və Azərbaycanı bu bəlalardan xilas etdi.

Tədbirin sonunda ATU-nun rektoru, professor Gəray Gəraybəyli və YAP-ın Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov YAP-ın sıralarına yeni qatılan bir qrup tələbə və əməkdaşa partiyanın üzvlük vəsiqəsini təqdim ediblər. Bundan başqa, ictimai sahədə aktiv fəaliyyətə görə universitetin bir sıra əməkdaşlarına xüsusi sertifikatlar verilib.

# Böyük Öndər Heydər Əliyev və hüquqi dövlət quruculuğu



**Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqlarının fundamental prinsiplərinin qərar tutmasına zəmin yaradan ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi yoluna doğru aparan islahatlar Heydər Əliyev siyasi xəttinin əsasını təşkil edir.**

Azərbaycan dövləti müstəqilliyinin əldə edilməsi ilə paralel şəkildə, tarixdə ilk dəfə olaraq milli dövlət, müstəqil siyasi dövlət, demokratik hüquqi dövlət quruculuğu vəzifələrini eyni vaxtda və qısa bir zamanda həyata keçirmək tələbləri ilə üz-üzə durmuşdu. Əgər tarixə nəzər salsaq, dövlətçilik quruculuğunun müxtəlif dövrlərinə müvafiq gələn bu mərhələlərin hər birini dünya ölkələri çox böyük bir zaman müddətində tədricən keçmiş, təkamül yolu ilə onları ardıcıl qət etmişdir. Bu mərhələləri daha sürətlə və qətiyyətlə keçməyə müvəffəq olan, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq qalan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikası bu gün insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan əsl müstəqilliyini əldə etməklə yanaşı, insan hüquqlarının təmini, inkişaf etdirilməsi, qorunması sahəsində mühüm nailiyyətlərə imza atdı. Məhz Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə ölkəmizdə hüquqi dövlət quruculuğuna başlandı, söz, fikir və mətbuat azadlığı etibarlı şəkildə təmin edildi, digər demokratik prinsiplərin cəmiyyətdə təşəkkül tapması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi, bu sahədə demokratik prinsiplərə tam cavab verən qanunvericilik bazası yaradıldı. 1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazıldı. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Ulu Öndər müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdü. Nəticədə, onun bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə referendum yolu ilə qəbul edilən Konstitusiyada bir sıra normaları və beynəlxalq öhdəlikləri qabaqlayan əsas hüquqlar və azadlıqlar təsbit olundu, Azərbaycanda söz və fikir azadlığının təmin edilməsi hüquqi baxımdan təsdiqləndi.

Azərbaycanın müstəqillik dövründə qəbul etdiyi birinci Konstitusiya həm bütün qabaqcıl demokratik ölkələrin qanunvericiliyində təsbit olunan, həm də beynəlxalq hüquq və normalarda nəzərdə tutulan insan hüquq və azadlıqlarının geniş əhatəsini özündə əks etdirən ilk hüquqi sənəd olmuşdur. Azərbaycanın dövlətçilik tarixində hüquqi dövlətin və qanunun aliliyinin prioritetliyi, demokratik ənənələr həmin vaxta qədər olmamışdır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni mərhələsi başlandı. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası nəinki ölkənin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyini ifadə edən Əsas Qanun olmaqla, cəmiyyətin ictimai-siyasi institutlarının fəaliyyətini, dövlətin özünüidarə sistemini tənzimləyərək vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi təminatçısı qismində çıxış edirdi. Ümummilli Lider Heydər Əliyevin Əsas Qanunumuzla bağlı söylədiyi – "Konstitusiyanın hər bir müddəası xalqın iradəsini ifadə edir" - fikri, zənnimizcə, bu ali hüquqi sənədin dövlət və cəmiyyətdəki roluna verilən ən mühüm qiymətdir. Konstitusiyada əksini tapmış mühüm müddəalardan biri də xalqın hüquq və mənafeləri ilə bağlı bütün məsələlərin referendum yolu ilə həllinin nəzərdə tutulmasıdır. Konkret olaraq 3-cü maddədə göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu və ona dəyişikliklər edilməsi, habelə Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələləri yalnız ümumxalq referendumu yolu ilə həll oluna bilər.

Konstitusiyamızın milli hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri də hüquqi dövlətin ayrılmaz atributu olan və müasir tələblərə cavab verən müstəqil məhkəmə hakimiyyətinin yaradılması olmuşdur. Konstitusiyanın yüksək məziyyətləri insan və vətəndaş hüquqlarının kifayət qədər aydın və sadə şəkildə təsbit olunması və bunun dövlətin ali məqsədi elan edilməsidir. İnsan hüquqlarına belə həssas münasibət inkişaf etmiş bir sıra dövlətlərin konstitusiyalarında bu dərəcədə aydın və geniş göstərilməmişdir.

Onu xüsusən qeyd etmək yerinə düşər ki,1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev böyük humanistlik edərək ölkə qanunvericiliyində dəyişikliklər etmiş və ölüm hökmünü ləğv etmişdir. Konstitusiyanın keçid müddəalarında Azərbaycan dövlətinin demokratik cəmiyyətə inteqrasiyası ilə əlaqədar bir sıra hüquqi islahatların həyata keçirilməsi öhdəlik kimi qəbul edilmiş və bunun yerinə yetirilməsi yönündə mühüm addımlar atılmışdır.

Müstəqil dövlətimizin siyasi həyatında cərəyan edən siyasi proseslər, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin getdikcə möhkəmlənməsi Avropa xalqları ailəsinə inteqrasiyanın güclənməsi, beynəlxalq təşkilatlar qarşısında götürülmüş öhdəliklərin yerinə yetirilməsi 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın mətninə müvafiq dəyişikliklərin edilməsi zərurətini yaratmışdır. Məhz bununla əlaqədar Heydər Əliyev 2002-ci il 22 iyun tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsini ümumxalq səsverməsinə çıxardı. Avqustun 24-də xalqımız ölkə Prezidentinin müdrik təşəbbüsünü dəstəkləyərək Konstitusiyaya dəyişikliklər edilməsinin lehinə səs verdi.

Azərbaycan Konstitusiyası bu gün beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artan ölkəmizin hərtərəfli inkişafının təminatçısıdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır.

Ümummilli Liderimizin siyasi kursu Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməkdədir. O, 2020-ci ildə "Ata vəsiyyəti"ni yerinə yetirərək Azərbaycan Respublikasının konsititusion ərazi bütövlüyünü böyük Qələbəmizlə təmin etdi.

Ümummilli lider Heydər Əliyevin həyat yolu , siyasi fəaliyyəti hər birimiz üçün nümunədir və gələcək nəsillərə bir örnəkdir.

Böyük azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır.

**Elbrus Sadıqov,**
*İctimai fənlər kafedrasının dosenti*

# Əməkdaşlarımız üçün təlimlər təşkil olunub

**Universitetimizin əməkdaşları üçün "Effektiv strateji planlaşdırma və proqram qiymətləndirilməsi" (Effective strategic planning and program evaluation) və "Effektiv kurrikulumun/sillabusun yaradılması" (Effective curriculum/sillabus design) təlimlərinə start verilib.**



Strateji planlaşdırma və proqram qiymətləndirilməsi üzrə təlimdə kafedra müdirləri, struktur bölmə rəhbərləri və əməkdaşlar iştirak edir. Kurrikulumun/sillabusun yaradılması üzrə təlim isə müvafiq olaraq tədris prosesində iştirak edən heyət üçün keçirilir.

Qeyd edək ki, təlimlər Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin xarici ekspert komissiyasının rəsmi hesabatının tövsiyəsinə uyğun olaraq, tanınmış mütəxəssis Tiffany Tillman tərəfindən keçirilir. 10 ildən artıqdır bu sektorda fəaliyyət göstərən T.Tillmanın proqram qiymətləndirilməsində, akkreditasiya işində və tədris planının yaradılmasında böyük təcrübəsi var. O, ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən həyata keçirilən English Language Fellow proqramı üzrə fəaliyyət göstərir.

**Aprelin 19-da Azərbaycan Tibb Universitetində tanınmış detektiv yazar Elxan Elatlının tələbələrlə görüşü keçirilib. Tədbirdə açılış nitqi ilə çıxış edən ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov yazıçı Elxan Elatlının geniş təqdimata ehtiyacı olmadığını bildirib:**

# Detektiv yazar Elxan Elatlı ATU-nun tələbələri ilə görüşüb



"Əksəriyyətinizə bu imza yaxşı tanışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı Elxan Elatlının əsərləri ən çox oxunan və satılan kitablar arasındadır. Çoxsaylı oxucuların rəğbətini qazanmış yazarın bu gün tələbələrimizlə görüşünün maraqlı olacağına inanıram".

Yazıçı belə bir görüşə şərait yaratdığına görə universitet rəhbərliyinə təşəkkürünü bildirib. Həkimlərə və həkimlik peşəsinə münasibətdə qəlbində daim bir sevgi olduğunu qeyd edən E.Elatlı qızının da bu peşəni seçdiyini və onun bu seçimindən çox sevindiyini dilə gətirib: "Həkimlər həmişə çoxsaylı insanlarla ünsiyyətdə olur. Bu peşənin sahibləri xəstələrdə inam yaratmaq, onların tez sağalıb sağlam həyata qayıtmasına yardımçı olmaq üçün sözün qüdrətindən zamanında və yerində istifadə etməlidirlər. Bu mənada həkimlərin işinə də bədii ədəbiyyatın təsiri çox böyükdür".

Görüş zamanı yazıçı yazdığı əsərlərlə bağlı məlumat verib. Daha sonra müəllifin "Uğursuz gecə", "Xəyanət", "Dilənçi qadının sirri", "Arxalı canavar", "Qanbay Qasımlının xəfiyyələri", "Qan ləkəsi", "Yeddinci mərtəbədə qətl", "Xəstə ruhlar", "On dördüncü adam", "Qazinin ölümü" və sair əsərlərinin süjet xətti, əsas personajları müzakirə edilib. E.Elatlı tələbələrin çoxsaylı suallarını ətraflı şəkildə cavablandırıb.

Görüşün sonunda yazıçıya universitetin hədiyyəsi təqdim olunub və tələbələrlə xatirə şəkli çəkilib. Tələbələr belə görüşlərin vaxtaşırı təşkil olunmasını arzu ediblər.

# ATU-nun professoru Ufada master-klaslar keçib

**Akademik mobillik proqramına uyğun olaraq, ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəylinin Başqırdıstan Dövlət Tibb Universitetinin (BDTU) Nevrologiya kafedrasında apardığı dərslər başa çatıb.**

Asiya və Afrikadan olan BDTU tələbələri Azərbaycanın tanınmış professorundan ingilis dilində təhsil almaq imkanını yüksək qiymətləndiriblər. Onlar qeyd ediblər ki, A.Məmmədbəyli BDTU-nun klinikasında mükəmməl master-klaslar keçirib və uşaqlarda mukopolisaxaridozun nadir forması haqqında öz klinik nümunələri, fotoşəkillər və videogörüntülər vasitəsilə maraqlı mühazirə oxuyub.

"Biz Bakıdan bir nevroloqun Ufaya ilk səfərindən çox məmnunuq və növbəti əməkdaşlığı səbirsizliklə gözləyirik. Universitetlərarası müqavilə tərtib olundu, gələcək planlar müzakirə edildi. Azərbaycandan olan tələbələr 2023-cü ilin may ayında "Nəzəri və praktiki təbabətin problemləri" mövzusunda keçirəcəyimiz beynəlxalq Tələbə və Gənc Alimlərin 88-ci Ümumrusiya Elmi Konfransında iştirak edəcəklər.



Biz artıq qarşılıqlı dostlar tapmışıq və professor Məmmədbəylinin köməyi ilə kafedra, universitet mərkəzləri və layihə ofislərinin işi çərçivəsində əməkdaşlıq üçün dünyanın və MDB-nin müxtəlif ölkələrində yeni dostlar qazanmağı planlaşdırırıq", - deyə əməkdaşımızın səfərinin təşəbbüskarı olan BDTU-nun professoru, nevroloq Leyla Əhmədova bildirib.

Şəhid məzunlarımız

# "Dayım mənim qəhrəmanımdır"

## Şəhid gizir Fariz Şıxəliyevin davamçıları təkcə ailəsində deyil, bütün Azərbaycanda böyüyür



**Bu dünyaya hərbçi kimi gəlmişdi. Elə uşaqlıqdan hərbi hissədə əsgərlər arasında olar, gününü onlarla keçirərdi. Bəzən əsgərlər papaqlarını onun başına qoyar, kəmərlərini daraldıb belinə taxar, bu zaman balaca Fariz Şıxəliyev qamətini düzəldərək hərbçi görkəmi alar, özünü onlardan biri hesab edərdi. Hərbçilər isə ona zarafatla "əsl əsgər belə olar" deyər, həvəsləndirərdilər.**

Atası Şahverdi Şıxəliyev Rusiyanın Xabarovsk vilayətində hərbi xidmətdə olduğu üçün Fariz 1987-ci il dekabrın 10-da adıçəkilən vilayətdə dünyaya gəlib. Ata Şıxəliyev 1992-ci ildə ailəsi ilə birgə Vətənə dönüb və xidmətini Milli Ordumuzda davam etdirib. Fariz orta məktəbi Şamaxının Qaravəlli kəndində başa vurub.

2006-2008-ci illərdə N saylı hərbi hissədə xidmət edib. Milli Qəhrəman Polad Həşimovun əsgəri olub və həmişə milli ruhlu komandirini böyük ehtiramla yad edib.

2009-2011-ci illərdə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində "feldşer" ixtisası üzrə təhsil alıb. 2011-ci ildə Beyləqan rayonunda N saylı hərbi hissədə xidmətinə başlayıb. 2014-cü ildən isə Xüsusi Təyinatlı Qüvvələrin sıralarında olub.

2020-ci il oktyabrın 27-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Məzarı Şamaxı Şəhidlər Xiyabanındadır.

### "Farizin uşaqlıqdan hərbə böyük marağı olub"

**Atası Şahverdi Şıxəliyev:**

- Keçmiş Sovetlər Birliyində hərbçi olmuş, Xabarovsk vilayətində ümumqoşun növündə xidmət etmişəm. 1992-ci ildə Azərbaycana gəldim, Milli Orduda xidmət etdim. Mənim o biri oğlum da hərbçidir, zabitdir, ön xəttə xidmət edir. Müharibə vaxtı o da Füzuli istiqamətində döyüşüb. Kürəkənim də hərbçi olub, müharibədən bir neçə ay öncə xidmət zamanı dünyasını dəyişib. Farizin uşaqlıqdan hərbə böyük marağı olub. Mən xidmət etdiyim vaxt hərbi hissəyə gedər, rus əsgərlərinə qoşulardı. Olduqca vətənpərvər idi.

Vətən müharibəsindən əvvəl - avqustun axırlarında bir həftəlik evə buraxmışdılar. Onu axırıncı dəfə onda gördüm. Mənimlə sonuncu dəfə oktyabrın 25-də danışıb. Bir neçə gün sonra mənə zəng gəldi, Horadiz Diaqnostika Mərkəzinə çağırdılar. Hiss etdim ki, oğlum şəhid olub...



### "Müharibədə iştirak etməsindən 20 gün xəbərim olmayıb"

**Anası Xəzəngül Şıxəliyeva:**

- Fariz yaxşı xidmətlərinə görə fəxri fərmanlar, tərifnamələr, orden və medallarla təltif olunub. Aprel döyüşlərində də iştirak etmişdi. O döyüşdə Yaşma qəsəbəsindən olan Rabil Həsənov adlı bir dostu da şəhid olmuşdu. Hər dəfə evə gələndə, gecə də olsa, gedib onu ziyarət edərdi. Döyüşdə şəhid olanları heç vaxt unutmurdu.



Müharibəyə gedəndən 20 gün sonra xəbər tutmuşam ki, Fariz cəbhədədir. Məndən gizlədirmişlər. Bacısı deyirdi ki, həkim olduğu üçün aparmayıblar, Cəlilabaddadır. Müharibəyə getməmişdən qabaq mənimlə həmişə telefonla danışırdı. Gördüm ki, əvvəlki kimi danışmır. Hiss etdim ki, məni aldadırlar.

Təzə oğlu olmuşdu, adı Əlidir. Hər dəfə danışanda deyərdi ki, Əliyə yaxşı baxın. Farizin ölümünə hələ də inanmıram. Hər bayram gələndə gözüm yolda qalır. Elə bilirəm ki, indi pəncərəni döyüb içəri daxil olacaq...

### "Oğlumuzun 3 ayının tamamında qara xəbərini aldım"

**Həyat yoldaşı Fərqanə Şıxəliyeva:**

- Farizlə 2019-cu ildə tanış olmuşam. Toyumuz avqustun 11-də olub. Çox gözəl, olduqca ailəcanlı bir insan idi. Özümüzü çox xoşbəxt hiss edirdik. Gələcək üçün xəyallar, planlar qurmuşduq. Cəmi bir il bir ay evli olduq. Bir oğlumuz dünyaya gəldi. Adını Əli qoydu. Ailəsi ilə bağlı planlaşdırdıqlarını həyata keçirə bilmədi. Çox təəssüf ki, Farizi tez itirdik, arzuları yarımçıq qaldı...

Əlini isə anadan olandan sonra cəmi iki dəfə gördü. Oğlunun 3 ayının tamamında qara xəbərini aldım. Bu xəbəri alanda bütün dünyam qaraldı. Əli üçün çox şeylər edəcəkdi. Amma...

Düzdür, çalışıram arzularını qismən də olsa, həyata keçirəm. Özü sağ olsaydı, tamam başqa olardı. Axı övladlar ataları ilə ürəkli olurlar...

### "Səsindəki sevincdən qələbələrimizi hiss edirdim"

**Qardaşı Ağaverdi Şıxəliyev:**

- Onun haqqında danışmaq mənim üçün çox çətindir. Mən də hərbçiyəm. Bu peşəni ilk öncə mənə atam, sonra isə qardaşım sevdirib. Həmişə torpaqlarımızın yağı düşməndən azad olunması haqqında düşünərdi. O, müharibəyə gedəndə onunla sağollaşmadım, çünki sağ-salamat geri qayıtmasını istəyirdim. Amma nəsib olmadı... Müharibə vaxtı arada telefonla danışırdıq. Hər dəfə ərazilərimiz azad olunduqca uşaq kimi sevinirdi. Düzdür, açıq şəkildə məlumat verə bilmirdi, amma səsindəki sevincdən qələbələrimizi hiss edirdim. Uşağı anadan olanda da xidmətdə idi. Onu bu münasibətlə ilk dəfə mən zəng edib, təbrik etmişəm.



### "Şəhid olmamışdan 2 saat öncə hamımızla danışdı"

**Bacısı Günay Allahverdiyeva:**

- Bacı üçün şəhid qardaşı haqqında danışmaq olduqca çətin, çətin olduğu qədər də şərəflidir. Fariz ailədə çox mehriban, qayğıkeş olub. Hər kəslə özünün xarakterinə görə danışardı. Təkcə qardaşım deyildi, həm də uşaqlıq dostum, sirr yoldaşım idi. Hər sözümü ona, o da mənə deyərdi. Onun şəhid olmasından çox sarsılmışam. Hələ də özümə gələ bilməmişəm. Şəhid olmamışdan 2 saat qabaq hamımızla danışdı. Elə bil şəhid olacağı ürəyinə dammışdı. Hamı ilə hal-əhval tutdu. Ən sonda mənimlə danışdı. Qaçırdı, təngnəfəs idi, atəş səsləri aydın eşidilirdi. Soruşdum ki, nə atəşdir? Dedi, heç, atırlar. Hiss etdim ki, lap qaynar bölgədədi. Biz narahat olmayaq deyə, hər şeyin yaxşı olduğunu deyir, azad olunmuş əraziləri bizə sətiraltı çatdırırdı.

**Bacısı oğlu Yusif Allahverdizadə:**

- Babam, rəhmətlik atam, dayım da hərbçi olublar. Mənim də arzum böyüyəndə onlar kimi hərbçi olmaqdır. Dayım hərbi tibb maşınında xəstələrə xidmət göstərirdi. Arada məni də mindirib gəzdirərdi. Dayım məni, mən də onu çox istəyirdim. Bizə gələndə məni gəzməyə aparar, oyuncaqlar alardı. Dayım mənim qəhrəmanımdır.

### "Şəhidlərimizin qanı yerdə qalmadı"

**Məktəb direktoru Rahim İsmayılov:**

- Fariz bizim məktəbin məzunu olub. 1994-2004-cü illərdə Şamaxı rayon Qaravəlli kənd tam orta məktəbi bitirib. O, yaddaşımda həmişə sakit, mehriban, vətənpərvər, çalışqan bir şagird olaraq qalıb. Düşünürəm ki, Farizdə Vətənə olan sevgi onun hərbçi ailəsində dünyaya gəlməsindən irəli gəlirdi.

Torpaqlarımızın düşmən əlində olması ilə heç cür barışmırdı. Onun yoxluğu bizim üçün ağır olsa da, tək təsəllimiz torpaqlarımız uğrunda şəhid olmasıdır. 30 il işğal altında qalan torpaqlarımız bu gün azadlıqdadır. Farizin və digər şəhidlərimizin qanı yerdə qalmadı.

Fariz heç nədən qorxmadan od-alovun içərisindən yaralı zabit və əsgərlərimizi xilas edib. Can qurtaran qəhrəman həkimimiz döyüş dostları, Vətənimiz, torpaqlarımız uğrunda canını fəda edib.

Şəhidlər ölməz və unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin xatirələri hər yerdə anılırsa, hər yerdə ehtiramla yad edilirsə, deməli onlar ölməyib, ürəklərdə daim yaşayır.

### "Şəhidlər məmləkətin, xalqın qan yaddaşıdır"

**Sinif rəhbəri Sima Zahidova:**

- Mənim şəhidim, sevimli şagirdim, oğlumun can dostu, qeyrətli, qorxmaz, həmişə üzügülər və zarafatcıl Fariz balam. 2020-ci il oktyabrın 27-si eşitdiyim o acı xəbər məni olduqca sarsıtdı, ürəyim sızıldadı. El-obam bir cəsur oğlunu, bir igid əsgərini itirmişdi. Farizin itkisi biz müəllimləri və onu tanıyanları hər birini yandırdı, ürəyimizi göynətdi. O hissi, o göynərtini sözlə ifadə etmək çox çətindir.

Şəhidlər ölməzdir, ölməzi isə ağlamazlar! Şəhidlər Vətən daşı, yurdun vətəndaşıdır. Şəhidlər məmləkətin, xalqın qan yaddaşıdır.

Hər gün səhər məktəbin giriş qapısından içəri daxil olanda, gözümüzün önünə Farizin nur kimi parlaq siması gəlir və bizə öz haqqımızı, vətəndaşlıq borcumuzu xatırladır.

### "Yaralıları od-alovun içərisindən çıxarırdı"

**Döyüş yoldaşı Tərlan Mikayıllı:**

- Farizi 2009-cu ildən tanıyıram. Universitetdə 2 il bir yerdə oxumuşuq. Tale elə gətirib, həm də 2015-ci ilin aprelindən bir yerdə xidmət etmişik. Farizin Aprel döyüşlərində də xidməti olub, yaralılarımıza tibbi yardım göstərib, həyatlarını xilas edib. Mənə həmişə "Buraxılış" deyə müraciət edirdi. Vətən müharibəsində ilk döyüşümüz Murovdağdan başlayıb. Döyüş zamanı yaralandım. Gəlib başımı qucaqladı, "Buraxılış", məni tək qoyma" - dedi. Füzulidə gedən döyüşlərdə yaralıları od-alovun içərisindən çıxarırdı. Sonra Cəbrayılda gedən döyüşlər vaxtı uca səslə qışqıraraq məni axtarırdı. Elə bilirdi, yenə mənə nəsə olub. Fariz igid bir oğlan idi. Biz çox yaxşı dost və qardaş olmuşuq.

Döyüş zamanı iki erməni polkovnikini əsir götürüb, maşınlarını ələ keçirib, komandanlığa təhvil vermişdi. Döyüşlərin qızğın çağında eşitdim ki, Fariz sürücüsü ilə minaya düşüb, şəhid olub. Dəlicəsinə qışqıraraq qaçmağa başladım. Allaha yalvardım ki, bir güllə də mənə dəysin, mən də şəhid olum. Amma dəymədi, sağ qaldım.



Döyüş qurtardı. Hamı evinə qayıtdı. Mən isə Şamaxı Şəhidlər Xiyabanına Farizin ziyarətinə getdim...

**Haqqında "Yarımçıq qalmış ömür" kitabı yazılıb**

Ötən il Fariz Şıxəliyevin həyatını və keçdiyi döyüş yolunu əks etdirən "Yarımçıq qalmış ömür" adlı kitab işıq üzü görüb. Kitabda onun komandiri olmuş, Vətən müharibəsi qəhrəmanı, general-mayor Kənan Seyidovun ürək sözləri də öz əksini tapıb: "...27 sentyabr 2020-ci il müharibənin ilk günündən gizir Fariz Şıxəliyev döyüş yoldaşları ilə birlikdə döyüşə qatılıb və müharibənin ən qızğın nöqtələrində yüksək şücaət göstərib, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Böyük türk milləti "Ölsəm şəhid, qalsam qazi", "Torpaq uğrunda ölən varsa, Vətəndir" şüarları ilə tarixdə zəfərlər qazanıb. Tarix boyunca şəhidlik xalqımızın mənliyində yaşayan yüksək əxlaqi keyfiyyətlərdən olub. Xalqımız Vətən yolunda müqəddəs dəyərlər naminə həmişə döyüşüb, bu yolda ölməyi yaşamaqdan üstün tutub. Fariz Şixəliyev də Vətən müharibəsinin igid şəhidlərindəndir".

Qeyd edək ki, tibb xidməti giziri F.Şıxəliyevin xidmətləri dövlətimiz tərəfindən də qiymətləndirilib. Göstərdiyi fədakarlıq və qəhrəmanlığı nəzərə alınaraq o, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şücaətə görə", Kəlbəcər, Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı və Zəngilanın azad olunmasına görə, o cümlədən "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley, III dərəcəli "Qüsursuz xidmətə görə", II dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif olunub.

**Qabil ZİMİSTANOĞLU**



# Allergiyanı yaradan qida deyil, onun tərkibindəki əlavələrdir

## Rəngləyici maddələr, aromatizatorlar, emulqatorlar, konservantlar ağır nəticələrə səbəb ola bilər



**"Son illər bronxial astma və allergik rinitlə yanaşı, allerqologiyanın aktual problemlərindən biri də qida allergiyasıdır. Allergik xəstəliklər arasında qida allergiyası xüsusi yer tutur. Erkən yaşlı uşaqlar arasında bu xəstəliyə daha çox rast gəlinir. Müxtəlif müəlliflərin məlumatlarına əsasən, qida allergiyasının rastgəlmə tezliyi 0.3-7.5% (böyüklər arasında 1.4-2.4%) təşkil edir".**

Bunları ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, əməkdar elm xadimi, əməkdar həkim, tibb elmlər doktoru, professor Lalə Allahverdiyeva bildirib.

Mütəxəssisin sözlərinə görə, kiçikyaşlı uşaqlarda istənilən qida məhsulu allergik reaksiya və ya xəstəlik törədə bilər. Lakin qidalardan bəziləri allergiyanın əmələ gəlməsinə daha çox səbəb olur: "Məsələn, uşaqlarda allergiyanın ən çox törədiciləri inək südü, yumurta, buğda, soya, yer fındığıdır (araxis). Böyüklərdə isə – fındıq, qoz, yerfındığı, soya, balıq və digər dəniz məhsulları. Müxtəlif müəlliflərin məlumatlarına əsasən, dünya əhalisinin yalnız 3%-də qida məhsulunun tərkibində olan maddələrə qarşı həqiqi allergik reaksiya yaranır. Digər hallarda isə qidanın tərkibində olan qida əlavələrinə allergik reaksiyalar əmələ gəlir. Bu qida əlavələrinə rəngləyici maddələr, aromatizatorlar, emulqatorlar, doldurucu vasitələr, konservantlar aiddir. Qida allergiyasının əmələ gəlməsi qidanın hazırlanma qaydasından da asılıdır. Məsələn, buxarda hazırlanmış balıq konservləşmiş və ya hisə verilmiş balıqla müqayisədə daha az allergik reaksiya törədir".

Sözünə davam edən Lalə xanım vurğulayıb ki, qida sənayesində geniş istifadə edilən rəngləyici maddələrdən biri də tartrazindir: "Tartrazin E102 kimi qeyd olunan sintetik qida əlavəsidir. O, adətən sarı rəngdə toz şəklində buraxılır. Tartrazin ucuz rəngləyici maddə olduğuna görə, qida və farmakoloji sənayedə geniş istifadə olunur. Bu rəngləyici maddə yüksək allergik xüsusiyyətlərə malikdir. Belə ki, onun istifadəsindən sonra allergiyaya meyilli olan şəxslərdə kəskin övrə, Kvinke ödemi, müxtəlif səpgilər, qaşınma, boğulma tutmaları, təngnəfəslik, hətta ağır simptomlarla keçən Merkelson-Rozental sindromu yarana bilər. Bu sindrom dildə çatlar və yaralar, üz sinirinin iflici ilə xarakterizə olan ağır xəstəlikdir. Tartrazin sarı, narıncı, qırmızı rəngdə olan qida məhsullarının etiketlərində E102 işarəsi altında qeyd olunur və çox vaxt "Fast food" qidaların tərkibində olur. Bundan başqa, bu maddə biskvit məhsullarının, tortların, cemlərin, dondurmaların, jele və konservlər, yoqurtların, tərxun və tonik kimi qazlı içkilərin, konfetlərin və tez hazırlanan supların tərkibində olur. Farmakoloji sənayedə isə tartrazin sarı və narıncı rəngdə olan dərmanların hazırlanmasında istifadə olunur. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, allergiyaya meyilli olan şəxslər, xüsusən uşaqlar belə qidalardan uzaq durmalıdırlar".

**Tədris Cərrahiyyə Klinikasının Uşaq cərrahiyəsi və Neonatal intensiv terapiya şöbələrinin birgə seminarı keçirilib. Klinikanın rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov və həmin kafedranın dosenti Vüqar Məhəmmədovun təşkilatçılığı və moderatorluğu ilə keçirilən seminarda "Diafraqmal yırtıqların etiologiyası, klinikası, diaqnostikası və müasir cərrahi yanaşma metodları" mövzusu müzakirəyə çıxarılıb.**

# İki şöbənin birgə seminarı keçirilib



Neonatal intensiv terapiya şöbəsinin həkim-rezidenti Gülgəz Əsgərova və Uşaq cərrahiyyəsi şöbəsinin həkim-rezidenti Nərmin Muradzadə məruzələrlə çıxış ediblər. Məruzələrdə kongenital diafraqmal yırtıqların etiologiyasından, müalicə taktikalarından bəhs olunub. Həmçinin xəstəliyin klinika və diaqnostikasında müasir instrumental və laborator metodlar, cərrahi yanaşma üsulları haqqında danışılıb.

Bildirilib ki, anadangəlmə diafraqmal yırtıq (ADY), diafraqmanın inkişaf defekti səbəbiylə abdominal orqanların döş boşluğuna keçməsi və normal ağciyər inkişafının məhdudlaşması ilə nəticələnən ciddi hipoksik tənəffüs çatışmazlığı və yüksək ölüm göstəricisi ilə əlaqəli sindromdur. Rastgəlmə tezliyi 0.8-5/10.000-dir. Etiologiyası multifaktorialdır. Diafraqmal yırtıq yerləşmə nahiyəsinə görə təsnif olunur. Postero-lateral (Bochdalek hernisi) ən çox görünən tipdir. Anterior və santral yerləşmədə rast gəlinir. Prenatal diaqnostikası mümkündür.

# Uşaqlarda saysız fəsadların səbəbkarı - qurdlar

## Helmintlər bütün orqan və toxumaları zədələyir, fiziki və əqli inkişafı ləngidir

**"Uşaqlarda helmintlər mərkəzi sinir sisteminin pozulma simptomunun səbəbidir. Son vaxtlar uşaqlar arasında enterobioz invaziyası 90% təşkil edir". Bu fikirləri "Təbib" qəzetinə Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının dosenti, həkim-nevroloq Mahirə Məmmədova deyib.**

Həkim qeyd edib ki, uşaqlar əksər hallarda 3-12 yaşlarında qurd xəstəliklərinə (helmintozlar) yoluxurlar: "Uşaq orqanizmində eyni zamanda bir neçə növ helmintlər parazitlik edə bilər. İnfeksiya zamanı parazitlərin ifraz etdikləri toksinlər toksiko-allergik reaksiya verir, iltihabi reaksiya provokasiya edir və mexaniki yolla toxumanı zədələyir. Qurd invaziyası iştahanın azalması, bağırsaqlarda qida maddələrinin sorulmasının pozulması, boy və inkişafın ləngimə, anemiya, mikroqansızmalar və bioloji proseslərin pozulmasına belə gətirib çıxarır.

Qurd invaziyaları yanaşı patologiyanın gedişini də pisləşdirir, immun və sinir sisteminə, bağırsaq mikroflorasına, eləcə də qabiliyyətinə mənfi təsir göstərir. Bəzi parazitlər hətta bədxassəli şişlərin inkişaf etmə ehtimalını artırır. Deməli olar ki, uşaqların 48%-də yaş inkişafı geridə qalır. Bir sözlə, praktiki olaraq bütün orqan və toxumaları zədələyən bu parazitlər uşağın fiziki və əqli inkişafını da ləngidir. Buna görə də valideynlər helmintlərlə yoluxma təhlükəsini bir an da yaddan çıxarmamalı – uşağın yaşadığı evin gigiyenasına ciddi nəzarət etməli, uşaq böyüyəndə isə onun özünü gigiyena qaydalarına riayət etməyə öyrətməlidir".

Sözünə davam edən M.Məmmədova vurğulayıb ki, profilaktikaya nə qədər əməl edilsə də, kiçikyaşlı uşaqların bu xəstəliklərə yoluxmasının qarşısını tam almaq mümkün olmur: "Bildiyimiz kimi, bütün uşaqlar çirkli əllərini ağızlarına salır, həyətdəki it və pişiklərlə oynayır, çirkli meyvələri yeyirlər. Ona görə də 10 yaşına qədər olan belə uşaqlar praktiki olaraq helmintlərə yoluxmuş olurlar.

Helmintlərin sinir sisteminə toksiki təsiri tez yorulma, yuxu pozulması, həddindən artıq qıcığın olması, yaxud apatiya, iştahanın pozulması kimi simptomlar yaradır.

Astenik sindrom, yuxarı və aşağı ətraf əzələlərinin konvulsiyaları, yuxuda dişləri bir-birinə sürtmək, psixi və fiziki inkişafın geriliyi, somnabulizm, gecələr sidik saxlamamaq, disfagiya larinqospazm kimi hallara tez-tez rast gəlinir".

Həkimin sözlərinə görə helmintlərin epileptik tutmaların əmələ gəlməsində də müəyyən rolu var: "Qurd invaziyalarında



müxtəlif epileptik sindromlar - kiçik tutmalar və ocaq elementlərlə böyük tutmalar mümkündür. Bundan başqa, dilini dişləməsi, bəzən qeyri – iradi sidik qaçırma, klassik tonik və klonik tutmalar, həmçinin Cekson tutmaları, mioklonik tipli ocaqlı tutmalar və s.

Onu da qeyd edim ki, helmintlərin olması vaksinasiya və revaksinasiyaların nəticəsini pisləşdirir. Proqnoz invaziyanın növündən və zədələnmə intensivliyindən asılıdır. Göz, ürək və mərkəzi sinir sisteminin qurd invaziyaları isə daha təhlükəlidir.

Bir çox hallarda helmintozun diaqnostikası məqsədi ilə aparılan nəcisin müayinəsi, qanın bəzi göstəriciləri (eozinofillər, E immunoqlobulini) yoluxmanın olmasını təsdiq etmir. Bunu və helmintlərin uşaq orqanizmi üçün olan təhlükəsini nəzərə alaraq hər yaz və payız mövsümlərində, həkim-helmintoloqun ilkin məsləhətindən keçməklə, bütün ailə üzvlərinin helmintlərə qarşı profilaktik müalicəsini aparmaq məsləhət görülür".

# Qastroşizis xəstəliyi haqda elmi-praktik seminar

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında gənc həkim və rezidentlər üçün ənənəvi elmi-praktik seminar keçirilib. Bu dəfəki seminarda klinikanın Uşaq cərrahiyyəsi şöbəsinin həkim-rezidenti Gülsənəm Qocamanovanın hazırladığı "Qastroşizis xəstəliyinin diaqnostikası və müalicəsi" mövzusu müzakirəyə çıxarılıb.**



Məruzədə qastroşizis xəstəliyinin diaqnostikasından, cərrahi müalicəsi və əməliyyat taktikasından bəhs olunub. Həmçinin qeyd olunan xəstəliyin klinika və diaqnostikasında müasir instrumental və laborator metodlar və cərrahi yanaşma üsulları haqqında danışılıb.

G.Qocamanova çıxışında bildirib ki, qastroşizis qarnın ön divarının defekti nəticəsində yaranır: "Bu, göbəkdən sağda 2-5 sm defektdən bağırsaqların qarın divarından kənara çıxmasıdır. Bəzi hallarda sidik kisəsi over və testislər qarın boşluğundan kənarda yerləşir. Qastroşizis yunan dilindən tərcümədə "yarıq qarın" deməkdir. Qastroşizisli körpələrin diaqnostikası ana bətnində olduqda qoyulmalıdır. Bunun üçün fetal USM və MRT-də ana qanındakı afpnin və amniotik mayedə asetilxolinesterazanın səviyyəsi yoxlanılmalıdır. Ana multidisiplinar xəstəxanada mütəmadi yoxlanışlardan keçməlidir. Körpələrin xəstəxanadaxili daşınmasına diqqət etmək lazımdır. Artıq temperatur və maye itkisi, infeksiya riskindən qorumaq lazımdır. 80 faiz hallarda bu uşaqlar ilkin olaraq əməliyyat olunurlar. Qarındaxili təzyiq az olduqda, əlavə sintetik materialdan istifadə edilərək əməliyyat icra olunmalıdır. Düzgün cərrahi və neonatoloji yanaşma xəstənin həyatını xilas edir".

Seminarda iştirak edən Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov, Neonatal intensiv terapiya şöbəsinin müdiri, assistent Sərxan Elbəyiyev və dr. Samir Axundov mövzu ilə bağlı fikirlərini bölüşüblər.

İnteraktiv şəraitdə başa çatan seminarda adıçəkilən şöbələrin həkim və rezidentləri iştirak edib.

Qeyd edək ki, elmi-praktik seminar Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilovla Uşaq cərrahlığı kafedrasının dosenti Vüqar Məhəmmədovun birgə təşkilatçılığı və moderatorluğu ilə keçirilib.

# Hemofiliya xəstələri dövlət hesabına dərmanla təmin olunur

## Şəhla Şabanova: Qan durulaşdıran dərmanların nəzarətsiz qəbulu belə xəstələr üçün çox təhlükəlidir

**Hər il aprelin 17-si Ümumdünya Səhiyyə Təşkilatı və Dünya Hemofiliya Federasiyasının təşəbbüsü ilə Ümumdünya Hemofiliya Günü kimi qeyd edilir. Məqsəd qanın laxtalanması prosesinin pozulması ilə əlaqədar irsi xəstəlik olan hemofiliyadan əziyyət çəkənlərin hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin diqqətini cəlb etmək, bu barədə onların məlumatlılığını artırmaqdır.**



Hemofiliyanın müalicəsi yoxdur, lakin xəstənin orqanizmində çatışmayan qanın laxtalanması amilinin inyeksiya edilməsi yolu ilə xəstəliyin gedişinə tamamilə və uğurlu şəkildə nəzarət edilir. Bu məqsədlə istifadə edilən laxtalanma amili əksər hallarda donor qanından götürülür. 2006-cı ildən indiyə qədər ölkəmizdə hemofiliya xəstələri dövlətin qayğısı nəticəsində dərman preparatları ilə təmin olunurlar. 2005-ci ildə Dövlət Proqramı qəbul olunandan və 2006-cı ildən dərman preparatları gətiriləndən sonra bu xəstəlikdən ölüm halları minimuma enib.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının həkim-hematoloqu Şəhla Şabanova mövzu ilə bağlı ölkə mətbuatına müsahibə verib.

**- Şəhla xanım, ilk öncə bilmək istərdik ki, hemofiliya xəstəliyi nədir və xəstəliyin əlamətlərinə nələr daxildir?**

- Hemofiliya qanın laxtalanma sistemində olan VIII və (və ya) IX faktorların çatışmaması ilə xarakterizə olunan irsi qan xəstəliyidir və ciddi qanamalarla izlənilən nadir xəstəliklər qrupuna daxildir. Hemofiliyanın səbəbi qanın laxtalanmasını təmin edən faktorların əskik olmasıdır. İki tip hemofiliya var: Hemofiliya A və Hemofiliya B. Hemofiliya A xəstəliyin ən çox yayılmış növüdür və VIII qan laxtalanma faktorunun çatışmazlığından yaranır. Hemofiliya B isə IX laxtalanma faktorunun olmaması və ya ciddi şəkildə çatışmazlığı səbəbindən baş verir.

Bu xəstəlik oynaqlarda, daxili orqanlarda və əzələlərdə spontan və ya zədədən bir neçə saat sonra qanaxma ilə xarakterizə olunur. Yüngül dərəcəli hemofiliyada cərrahi əməliyyat və ya diş çıxarılması zamanı ağır qanaxma baş verə bilər.

**- Ağırlıq dərəcəsindən asılı olaraq xəstəliyin hansı formaları var?**

- Faktor səviyyəsindən asılı olaraq, hemofiliya xəstələri 3 qrupa ayrılır:

- *yüngül dərəcəli hemofiliya (faktor səviyyəsi 5-40 faiz arasında);*
- *orta dərəcəli (faktor səviyyəsi 1-5 faiz);*
- *ağır dərəcəli (faktor səviyyəsi ≤ 1 faiz).*

Hemofiliya xəstələrində spontan və dayandırılması çətinlik yaradan qanamalar baş verə bilər. Orta dərəcəli hemofiliyalı xəstələrdə spontan qanama, əksər hallarda isə kiçik travma və ya minimal invaziv müdaxilə əsnasında belə uzun davam edən qanaxmalar izlənilir. Ağır dərəcəli faktor çatışması olan hemofiyalı xəstələrdə isə heç bir müdaxilə olmadan belə çox ağır qanaxmalar baş verir.

**- Xəstəlik necə müəyyən edilir? Müalicə prosesində nəyə diqqət yetirmək lazımdır?**

- Bir çox hallarda planlanan əməliyyat öncəsində yoxlanılan koaqulyasiya testlərindəki dəyişiklik nəticəsində hemofiliya xəstəliyindən şübhələnilərək qanda faktor səviyyəsi yoxlanılır. Hemofiliyanın ağır və orta dərəcəli formalarında müxtəlif şiddətdə dəri hemorragik sindromu çoxsaylı ekximoz və hematomlar şəklində aşkar edilir.

Müalicə prinsipində ilkin məsələ baş verə biləcək qanamanın qarşısını almaq üçün çatışmayan faktor konsentrasiyası ilə xəstəni təmin etməkdir. Ən qısa müddətdə (ilk 2 saat ərzində) faktor konsentrasiyası köçürülərək qanama durdurulmalıdır. Bundan başqa, hemofiliya xəstələri qanama riskini nəzərə alaraq xəstəliyi təsdiq edən, hansı növ, inhibitor forma, ağırlıq dərəcəsi qeyd edilən sənədi daim özləri ilə gəzdirməlidirlər. Faktor köçürülməsinə rəğmən qanama davam edərsə, inhibitor varlığı araşdırılmalıdır.

**- Hemofiliyalı xəstələrə hansı profilaktik tədbirlər tövsiyə olunur?**

- Mümkün olduqca özlərini qorumalı, ağır işlərdən uzaq durmalıdırlar. Uzun səfərlər zamanı ilk yardım üçün lazımi dərman və tibbi ləvazimatlar olan çantanı özləri ilə götürməlidirlər.

Bundan başqa, qan durulaşdıran dərmanların (Aspirin və s) nəzarətsiz qəbulu hemofiliyalı xəstələr üçün təhlükəlidir. Eyni zamanda, mümkün qədər əzələdaxili inyeksiyalardan çəkinmək lazımdır. Diş problemi ilə bağlı stomatoloqlar öncədən məlumatlandırılmalı, xəstənin mövcud vəziyyəti müalicə həkimi ilə qiymətləndirilməlidir.

# Dendrologiya İnstitutu ATU ilə birgə vebinar keçirib

***Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu ATU-nun Əczaçılıq fakültəsinin Farmakoqnoziya kafedrası ilə birlikdə Ümumdünya Bioloqlar Gününə həsr olunmuş vebinar keçirib.***




"Dərman bitkilərinin istifadə perspektivliyi, mədəni dərman bitkilərinin farmakoqnostik tədqiqi və introduksiyası" mövzusunda tədbirdə Dendrologiya İnstitutunun (Dİ) və ATU-nun müəllim və tələbələri iştirak edib. Tədbiri giriş sözü ilə açan Dİ-nin baş direktor vəzifəsini icra edən b.ü.f.d, dosent Minarə Həsənova institutun ərazisində bitən və introduksiya olunan dərman bitkiləri haqqında məlumat verib, əməkdaşları 16 aprel - Bioloqlar günü münasibətilə təbrik edib.

Daha sonra ATU-nun Farmakoqnoziya kafedrasının dosenti Nərgiz Məmmədova, Sənaye əhəmiyyətli bitkilər laboratoriyasının aparıcı elmi işçisi, AMEA-nın müxbir üzvi Saleh Məhərrəmov mövzu ilə bağlı çıxışlar ediblər. Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nuray Qədirova "Azərbaycanın görkəmli bioloqları", Bitki sistematikası laboratoriyasının müdiri, b.ü.f.d Ramiz Ələkbərov "İnnab bitkisinin faydalı xüsusiyyətləri", Ağac-kolların introduksiyası laboratoriyasının baş elmi işçisi İradə Məmmədova "Abşeronda introduksiya olunmuş mərsin bitkisinin bioloji xüsusiyyətləri və fitokimyəvi tərkibi", ATU-nun tələbəsi Teymur Rəcəbov və başqaları müxtəlif mövzularda slaydlar təqdim ediblər.

### İstedadlı tələbə

**Xəyal Fətullayevi musiqidən kənar təsəvvür etmək çətindir. Dərslərinə fasilə verəndə və ya boş vaxtlarında onu ya royal arxasında, ya da skripka ifa edən görmək olar. Onun üçün fərqi yoxdur: istər milli, istər xarici musiqi - bildiklərinin hamısını sevə-sevə ifa edir. "Musiqili fasilə" ona imtahanların gərginliyini dəf etməkdə, dərslərə təmiz beyinlə hazırlaşmaqda çox kömək olur.**

# Həkim səhnədə



Universitetimizin tələbəsi olan Xəyal 2003-cü ildə Rusiya Federasiyasının Krasnoyarsk vilayətində anadan olsa da, orta təhsilini Tovuz rayonunun Alakol kənd 1 saylı tam orta məktəbində alıb. Musiqiyə həvəs ona valideynlərindən keçib. Belə ki, atası Əfrasiyab bəy bir çox musiqi alətlərində məharətlə ifa edir. Anası Humay xanımın isə gözəl səsi var. Xalq mahnılarını özünəməxsus şəkildə oxuyur. Xəyal təhsil aldığı illərdə özfəaliyyət dərnəklərində, orta və ali məktəblərdə keçirilən tədbirlərdə aktiv iştirak edib.

O, musiqi məktəbini də bitirib: "Qovlar şəhər 7 illik Uşaq Musiqi Məktəbində piano ixtisası üzrə təhsil almışam. Musiqi məktəbində oxuduğum illərdə dövlət səviyyəli müsabiqələrdə iştirak etdim, tədbirlərdə çıxışlarım oldu. Məktəbi əla qiymətlərlə bitirdim. Aktivliyimə görə mənə bir sıra diplom və tərifnamələr verilib. Ümumiyyətlə, hər zaman getdiyim yolda uğurlar qazanmışdım. Hələ 10-cu sinifdə oxuyanda məktəbdə göstərdiyim aktivliyi



nəzərə alaraq, məni "Ölkəmizi tanıyaq" layihəsinə dəvət etmişdilər. Orada həvəslə iştirak etdim, ifalarımla auditoriyanın diqqətini özümə çəkə bildim və bəyənildim".

Həmişə hərəkətdə olmağı sevən Xəyal, 2020-ci ildə ATU-ya daxil olandan sonra da aktivliyi ilə seçilir, universitetin tədbirlərində yaxından iştirak edir: "Mən 2-ci kursda oxuyanda özüm kimi musiqi bacarığı olan tələbələri ətrafıma topladım və universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir müəllimin rəhbərliyi ilə "Şəfa" musiqi ansamblını yenidən qurduq. Ansamblımız "Şuşanın dağları", "Zəfər Bayramı" adlı tədbirlərdə maraqlı nömrələrlə çıxış etdi və tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı. Çalışırıq ki, iştirak etdiyimiz bütün tədbirlərdə yaddaşlarda qala bilək".

Xəyalın aktyorluq qabiliyyəti də var. Belə ki, dahi şairimiz Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Beş məşəl" adlı tamaşada Əbu Bəkir rolunu məharətlə ifa edib, Nəsimi rayon Gənclər və İdman İdarəsinin sertifikatına layiq görülüb.

Məlum olduğu kimi, Prezidentin sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib. Ümummilli liderin anadan olmasının 100 illiyi münasibətilə bütün ölkədə müxtəlif tədbirlər keçiriləcək. Böyük yubiley tədbirində bir sıra ali təhsil ocaqlarının nümayəndə heyətlərinin iştirakı gözlənilir.

Xəyal isə öz ampluasındadır.Yubiley tədbirini səbirsizliklə gözləyir. Əmindir ki, yenə öz ifaları ilə auditoriyanın diqqətini cəlb edə biləcək.

* * *

**Redaksiyadan:** *Əziz tələbələrimiz, əgər sizin də təhsil aldığınız ixtisasla yanaşı, hər hansı bacarığınız və ya hobbiniz varsa, universitetimizin "Təbib" qəzeti bunu işıqlandırmağa hazırdır. Bunun üçün bizimlə əlaqə saxlamağınız kifayətdir.*

**Q.ABDULLAYEV**

### Allah rəhmət eləsin!

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Kəmalə Allahverdiyevaya dayısı

**Xəqani Həsənovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

### Etibarsız sayılır

Mohammed Hameed Husam Al Mayyah (qrup 117İ4) tələbə bileti;

Qarayeva Aynurə Şirin qızına 2002-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilən diplom itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0008
Sayı 800